AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TURİZM AGENTLİYİ

AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİ

AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİNDƏ DOSENT VƏ PROFESSOR VƏZİFƏLƏRİNİN VERİLMƏSİ ÜÇÜN

Q A Y D A LAR

ATMU-DPV-Q(DPV)-01

Bakı-2023

Dəyişikliklər haqqında məlumat			
Tarix	**Versiya**	**Tərtib etdi**	**Dəyişikliyin izahı**
01.12.2023	01	f-r.e.n.,dos.N.B.Nəsirli	İlkin versiya

MÜNDƏRİCAT

Giriş.....4

Dosent vəzifəsinin verilməsinə dair tələblər.....5

Professor vəzifəsinin verilməsinə dair tələblər.....6

Təsdiq edirəm

Azərbaycan Turizm və Menecment Universitetinin

rektoru _____ İlham Mədətov

"08" dekabr 2023-cü il

ATMU-DPV-Q(DPV)-01

Azərbaycan Turizm və Menecment Universiteti

DOSENT VƏ PROFESSOR VƏZİFƏLƏRİNİN VERİLMƏSİ ÜÇÜN

Q A Y D A LAR

GİRİŞ

Bu qaydalar "Elm haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq, dosent və professor vəzifələrinin verilməsi şərtlərini müəyyən edir. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunun 1-ci maddəsinin 1.0.14-cü və 1.0.37-ci bənlərində qeyd edilir ki, dosent - ali təhsil müəssisəsində müəllimlərə verilən elmi ad və seçkili vəzifədir, professor isə yüksək elm və təhsil göstəricilərinə (xüsusi qabiliyyət tələb edən sahələr istisna olmaqla) nail olan təcrübəli elmi və elmi-pedaqoji kadrlara verilən elmi addır. "Dosent və professor vəzifələrinin verilməsi üçün prosedur qaydaları" nın hazırlanmasında "Ali Təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında Əsasnamə (07.08.1996-cı il əmrinə 4 saylı əlavə) və Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə" əsas götürülmüşdür.

Dosent vəzifəsinin verilməsinə dair tələblər

Dosent vəzifəsi elmi fəaliyyətə görə müsabiqə yolu ilə və ya təyinatla ATMU-da elmi dərəcəsi olan iddiaçılara aşağıdakı tələblər ödənildiyi halda verilir:

- iddiaçının azı üç il elmi iş stajı olmalıdır;
- iddiaçı fəlsəfə doktoru dissertasiyasının müdafiəsindən sonra müvafiq ixtisas üzrə monoqrafiya (elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin elmi şurasının qərarı ilə çapa tövsiyə edilməli və həcmi iki yüz min işarədən az olmamalı) nəşr etdirməlidir və ya iddiaçının elmi rəhbərliyi ilə ixtisas üzrə təkbaşına hazırladığı azı iki mütəxəssis elmi dərəcə almalıdır;
- iddiaçı fəlsəfə doktoru dissertasiyasının müdafiəsindən sonra müvafiq ixtisas üzrə azı üç, o cümlədən beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) daxil olan dövri elmi nəşrlərdə dərc edilmiş humanitar və ictimai elmlər üzrə azı bir, dəqiq və təbiət elmləri üzrə azı iki elmi məqalə təqdim etməlidir;
- iddiaçının fəlsəfə doktoru dissertasiyasının müdafiəsindən sonra müvafiq ixtisas üzrə respublika və ya beynəlxalq miqyaslı elmi tədbirlərin (konfrans, konqres, simpozium və s.) nəticələri üzrə dərc edilmiş (beynəlxalq elmi tədbirlərin nəticələri üzrə azı biri – xaricdə) məruzə və tezislərinin sayı azı iki olmalıdır.

Professor vəzifəsinin verilməsinə dair tələblər

Professor vəzifəsi elmi fəaliyyətə görə müsabiqə yolu ilə və ya təyinatla ATMU-da elmi dərəcəsi olan və dosent elmi adı olan iddiaçılara aşağıdakı tələblər ödənildiyi halda verilir:

- iddiaçının azı beş il elmi iş stajı olmalıdır;
- iddiaçı elmlər doktoru elmi dərəcəsi aldıqdan sonra azı bir il bu vəzifədə qüsursuz və müvəffəqiyyətlə işləməlidir;
- iddiaçı elmlər doktoru dissertasiyasının müdafiəsindən sonra müvafiq ixtisas üzrə monoqrafiya (elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin elmi şurasının qərarı ilə çapa tövsiyə edilməli və həcmi dörd yüz min işarədən az olmamalı) nəşr etdirməlidir;
- iddiaçının elmlər doktoru dissertasiyasının müdafiəsindən sonra müvafiq ixtisas üzrə beynəlxalq miqyaslı elmi tədbirlərin (konfrans, konqres, simpozium və s.) nəticələri üzrə dərc edilmiş (o cümlədən azı biri – xaricdə) məruzə və tezislərinin sayı azı üç olmalıdır;

İddiaçı aşağıdakı tələblərdən birini yerinə yetirməlidir:

- ✓ elmlər doktoru dissertasiyasının müdafiəsindən sonra müvafiq ixtisas üzrə azı beş, o cümlədən beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) daxil olan dövri elmi nəşrlərdə dərc edilmiş humanitar və ictimai elmlər üzrə azı iki, dəqiq və təbiət elmləri üzrə azı üç elmi məqalə təqdim etməli və iddiaçının elmi rəhbərliyi və ya elmi məsləhətçiliyi ilə ixtisas üzrə təkbaşına hazırladığı azı iki mütəxəssis elmi dərəcə almalıdır;
- ✓ iddiaçının elmi rəhbərliyi və ya elmi məsləhətçiliyi ilə ixtisas üzrə təkbaşına hazırladığı azı dörd mütəxəssis elmi dərəcə almalıdır.

İddiaçılara dosent və professor elmi adlarının verilməsi üçün Respublika daxilində və xaricdə dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər qarşısında qoyulan tələblər və dövri elmi nəşrlərin daxil olduğu beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinin (bazalarının) siyahısı Azərbaycan Respublikasının Prezidenti yanına Ali Attestasiya Komissiyasının rəsmi internet səhifəsində yerləşdirilmişdir.

Ali təhsil müəssisələrində professor, dosent vakant vəzifələri bir qayda olaraq müsabiqə yolu ilə 5 il müddətinə tutulur. Ali təhsil müəssisəsi və ya kafedralar yeni təşkil edildikdə yüksək ixtisaslı mütəxəssisləri işə cəlb etmək zərurəti yarandıqda və digər

müstəsna hallarda ayrı-ayrı şəxslər həmin vəzifələri sonradan yalnız müsabiqədən keçməklə (bir ildən çox olmamaq şərtilə) müddətli əmək müqaviləsi bağlamaqla rektorun əmri ilə təyin olunurlar. Həmin müqavilənin müddətinin təkrar uzadılmasına yol verilmir. Müsabiqədə yüksək peşə-ixtisas hazırlığına, uyğun elm və ya istehsalat sahələrində nailiyyətlərə, lazımi elmi-pedaqoji və ya istehsalat təcrübəsinə, yüksək mənəvi keyfiyyətlərə, müvafiq elmi ad və dərəcələrə malik olan Azərbaycan Respublikasının vətəndaşı, həmçinin xarici ölkələrdə yaşayan azərbaycanlılar iştirak edə bilərlər. Seçki və ya təyinatla tutulduğu müddət başa çatan, eləcə də vakant professor, dosent vəzifələrinə müsabiqə elan olunur. Professor vəzifəsini tutmaq üçün müsabiqədə elmlər doktorları, dosent elmi adı olanlar, dosent vəzifəsi tutmaq üçün müsabiqədə isə fəlsəfə doktorları iştirak edə bilərlər.

İddiaçılar dosent vəzifəsinə fakültə elmi şurasında seçilirlər. Müstəsna hallarda rektorun əsaslandırılmış əmri ilə həmin seçkilər ali məktəbin elmi şurasında keçirilə bilər. Müsabiqə haqqında dövrü mətbuatda və ya digər kütləvi informasiya vasitələrində elan verilir. Professor-müəllim, dosent, vəzifələrinə seçilmək üçün elmi şurada müsabiqədə iştirak edən hər bir namizədin peşə-ixtisas hazırlığı haqqında məlumat dinlənilir. Müsabiqədə iştirak edənlərin adı və soyadı eyni səsvermə bülleteninə daxil edilir. Namizədin lehinə, yaxud əleyhinə münasibət bülletendə müvafiq adın və soyadın saxlanılması, yaxud da pozulması ilə bildirilir. Hər bir seçici yalnız bir namizədə səs verə bilər. Bülletendə iki və daha çox namizədin adı və soyadı pozulmamış qaldıqda bülleten etibarsız sayılır. Elmi şura səsvermənin nəticəsini hesablamaq üçün səsvermədə əvvəl 3-5 nəfərdən ibarət hesablama komissiyası seçir. Hesablama komissiyası hər bir namizəd üçün səsvermənin nəticəsini ayrılıqda elan edir və onun protokolu elmi şura tərəfindən mövcud qaydada təsdiq olunub, müsabiqə sənədlərinə əlavə edilir şuranın qərarı rektorun əmri ilə təsdiq olunur. Elmi şura üzvlərinin ən azı 2/3-nin iştirak etdiyi iclas səlahiyyətli sayılır. Səsvermədə iştirak edən şura üzvlərinin 50%-dən çoxunun səsini toplayan namizəd vəzifəyə seçilmiş sayılır. Müsabiqənin birinci mərhələsində namizədlərin heç biri 50%-dən çox səs toplamadıqda ən çox səs yığmış iki (səsvermədə iki namizəd) iştirak etdikdə isə bir namizəd həmin iclasda təkrar səsverməyə buraxılır. Bütün namizədlərin özlərinin seçilməsi məsələsi müzakirə olunan yığıncaq və elmi şura iclaslarında iştirak etmək hüququ vardır. Seçkilər müsabiqə elan olunan gündən ən geci 3 (üç) ay müddətində başa çatdırılmalıdır. Üzürsüz səbəbə görə müsabiqənin vaxtında keçirilməməsinə ali təhsil müəssisəsinin rəhbərliyi bilavasitə məsuliyyət daşıyır. Müsabiqə ilə əlaqədar şikayətlər elan dərc olunan

gündən başlayaraq seçkilərdən ən geci 15 gün keçənədək ali məktəbin rektoruna və ya təsisçiyə verilə bilər. Ali təhsil müəssisələrində müsabiqə bütün tədris ili müddətində elan edilə bilər; Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan olunduğu gündən başlayaraq 30 gündür. Müsabiqədə iştirak etmək istəyən şəxs rektorun adına ərizə ilə birlikdə aşağıdakı sənədləri təqdim etməlidir:

- *şəxsiyyəti təsdiq edən sənədin surəti (Notariat qaydada təsdiq edilmiş);*
- *kadrların şəxsi qeydiyyat vərəqəsi;*
- *tərcümeyi-hal;*

-ali təhsil, elmi ad və elmi dərəcə haqqında sənədlərin sürəti (Notariat qaydada təsdiq edilmiş);

- *Elmi dərəcə aldığı tarixdən sonra dərc olunmuş elmi əsərlərin, kəşf və ixtiraların təsdiq edilmiş siyahısı;*
- *Elmi dərəcə aldığı tarixdən sonra çap edilmiş dərslik, dərs vəsaiti və monoqrafiya.*

Müsabiqədə iştirak haqda ərizələrin qəbulundan imtina etmək yalnız namizədin müsabiqə üçün verilən elanın şərtlərinə uyğun gəlmədiyi və ya ərizənin verilmə müddəti gözlənilmədiyi hallarda ola bilər. Sənədlər əvvəlcə müvafiq kafedranın iclasında müzakirə olunur. Professor-müəllim heyəti üçün seçkilərdə bu iclası kafedra müdiri və ya onu əvəz edən şəxs aparır, kafedra dosent və professor vəzifəsinə hər bir namizədin elmi və elmi-pedaqoji fəaliyyətini obyektiv sürətdə qiymətləndirərək, müvafiq qərar qəbul edir.

Həmçinin qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə" sində və Azərbaycan Respublikasının Prezidenti yanına Ali Attestasiya Komissiyasının rəsmi internet səhifəsində yerləşdirilmişdir. (Bax aşağıdakı linklər: https://president.az/az/articles/view/33499, https://aak.gov.az/single/328).

Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş başqa hallara görə tutduğu vəzifədə işləməyə layiq görülməyən dosent və professor rektorun əmri ilə qanunvericilikdə nəzərdə tutulan qaydada vəzifəsindən azad edilir. Bu zaman müvafiq kafedranın təqdimatı və onların seçildiyi elmi şuranın qərarı əsas götürülür.